***İlk dəfədir ki, 26 İyun –Azərbaycan Silahlı Qüvvələri Gününə həsr edilmiş sətirləri qələmə almağın özümə də aydın olmayan qeyri-adi hisslərini keçirirəm. Müstəqilliyin ilk aylarından, illərindən bəri ordumuz haqqında nə qədər, neçə dəfə yazmışamsa, yadımda deyil. Yəni çoxdur. İndi isə xalqımızın bir əsrdən də çox gözlədiyi Zəfərə imza atmış qalib ordu, müzəffər Ali Baş Komandan, cəmi 44 gündə dünya hərb tarixinə yeni səhifələr yazmış Silahlı Qüvvələrimiz haqqında sətirləri qələmə almaq üçün qələmə sarılmışam. Nə xoş, necə qürurlu, nə qədər məsuliyyətli və həm də çətindir.***



***Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək... işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan Bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.***

***Prezident İlham Əliyevin 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradındakı nitqindən***

# Bayramın mübarək, qalib Azərbaycan Ordusu!

... Hansısa döyüşdə ağır məğlubiyyətə uğramış Osmanlı paşalarından biri öz xocasının yanına gəlir və bu acıya dözə bilməyəcəyini söyləyir. Xoca yetirməsini sakitləşdirmək üçün deyir: Ordunun tarixə yazılacaq zəfərinə hər ildə, hər qərinədə deyil, hər əsrdə bir dəfə nail olsaq, türk xalqı üçün çox böyük uğur ola bilər.

Xocanın məntiqinə söykənsək, onda mənim xalqım üçün son bir əsrdə bundan böyük uğur olmayıb. Çünki müstəqil Azərbaycan dövlətinin yüz illiyini cəmi üç il əvvəl qeyd etmişik və dünya hərbi məktəblərinin dərsliklərinə düşəcək zəfəri yüz ildə bir dəfə qazanmışıq. Bu, bizim varlığımızın, dövlətimizin mövcudluğunun, tariximizin zənginliyinin, gələcəyimizin möhtəşəm olacağının sübutu, göstəricisi, təsbitidir.

Fikrimcə, Silahlı Qüvvələr Günü münasibətilə hazırladığım materiala Ali Baş Komandanın ötən il dekabrın 10-da keçirilən Zəfər paradındakı nitqindən seçdiyim sitatın bir məntiqi ilə başlamaq daha yerinə düşür: "Azadlıq meydanında paradlar çox keçirilib". Mən məhz həmin çoxsaylı paradlardan üçü barədə söz açmaq istəyirəm. Çünki burada keçirilən ilk parad müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edənlərin siyasət liliputu olduğunu göstərirdisə, toxunmaq istədiyim son iki parad ölkənin siyasi rəhbərliyinin titanik uğurlarının və xalqa, milli dövlətçiliyə sədaqətinin bariz nümunəsidir.

Diqqət yetirin. Tarixi sənədlərdən oxuyuruq: "1992-ci il oktyabrın 9-da – Azərbaycan Ordusunun yaranmasının bir illiyi münasibəti ilə Bakı şəhərində hərbi parad keçirilib. Paradı müdafiə naziri Rəhim Qaziyev qəbul edib. Şəxsi heyət qarşısında isə prezident Əbülfəz Elçibəy çıxış edib".

Çox sadə, aydın və eyni zamanda düşündürücü cümlələr. Bəs deyirdiniz ki, yolumuz Məmməd Əmin Rəsulzadə yoludur. O yol, harada qaldı? Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı və qısa müddətdə özünəməxsus uğurlu fəaliyyət göstərmiş Azərbaycan Ordusunun tarixi harada qaldı ki, siz yeni yaradılmış ordunun bir illiyini bayram edirsiniz? Həmin paraddan sonra isə ölkə ərazisinin xeyli hissəsi düşmən tapdağı altına düşür və sizin "güllə sıxmağı vəd etdiyiniz başınız" hələ də salamatdır. Məmməd Əmin Rəsulzadə yoluna, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə kimin nə qədər sədaqətli olduğunu zaman çoxdan sübut etmişdir.

Haqqında söz açmaq istədiyim ikinci parad on il bundan əvvəl, iyunun 26-da keçirilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə keçirilən həmin paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, dövlət və hökumət rəsmiləri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva, deputatlar, xarici ölkələrin respublikamızdakı səfirləri, dini icmaların başçıları, beynəlxalq təşkilatların əməkdaşları, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Göründüyü kimi, dövlət başçımız müstəqilliyin 20 illiyi ilə yanaşı, ordumuzun yaranma tarixinə də böyük ehtiramla yanaşmışdır. Prezidentin həmin paraddakı nitqində fəxr və iftixarla yada salınmalı məqamlar kifayət qədər idi. Ancaq mən bir vətəndaş olaraq həmin günlərdə nitqdən eşitdiyim bir məqamı xüsusilə qabartmışdım. Dövlət başçımız demişdi: "Bu gün Azərbaycan Ordusunun təchizatı, o cümlədən daxildə istehsal olunan məhsullar hesabına formalaşır. Azərbaycanda



müxtəlif növ silahlar, sursatlar, hərbi texnika istehsal olunur və bu nailiyyətlər bu gün bu paradda göstəriləcəkdir. Patronlar, silahlar, mərmilər, tapançalar, avtomatlar, pulemyotlar, minaatanlar, snayper tüfəngləri, zirehli texnika, pilotsuz təyyarələr – bütün bunlar Azərbaycanda istehsal olunur. Azərbaycanda istehsal olunan hərbi texnika yüksək səviyyədədir. Beynəlxalq sərgilərdə nümayiş etdirilən Azərbaycan hərbi texnikası dünya miqyasında da böyük qiymətə malikdir". Torpaqlarının 20 faizi düşmən tapdağı altında olan ölkə üçün bu, çox mühüm məsələ idi.

Nəhayət, haqqında söz açmaq istədiyim üçüncü parad -- 10 dekabr 2020-ci il. Azadlıq meydanı, Zəfər paradı. Sanki Ankaranın bir hissəsini müvəqqəti olaraq Bakıya köçürmüşdülər. Türkiyə və Azərbaycan Prezidentləri yanaşı oturmuşdular. Türkiyə və Azərbaycan bayraqları yanaşı dalğalanırdılar. Nazirlər, generallar, deputatlar, mətbuat təmsilçiləri bir yerdə idilər. Hərbi orkestrlər yanaşı dayanaraq parada xüsusi ahəng qatırdılar. Türk əsgərləri ilə Azərbaycan əsgərlərinin rəsmi keçidləri düşmənə göz dağı idi. Səmada şahinlərimiz çiyin-çiyinə uçurdular. Otuz il xalqımıza zülm eləmiş barbar qonşulardan qənimət kimi götürülən çoxsaylı silah və hərbi texnika iki qardaş dövlətin rəsmilərinə təqdim edilirdi.

Azərbaycan Prezidenti İlham Əliyev bizə böyük sevinc bəxş edən 44 günlük müharibəni həmin paradda olduqca lakonik və müfəssəl şəkildə xarakterizə etmişdi: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Azərbaycan Silahlı Qüvvələri Gününə gəlincə isə deyə bilərik ki, ordumuz özünəməxsus tarixi səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə -- 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edilmiş, təcrübəli general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin olunmuşdular.

Milli Ordu qısa müddətdə Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad etmişdi. Çox təəssüf ki, ilk müstəqil dövlətimizin fəaliyyəti uzun müddət çəkmədi. Ancaq əsrin sonlarında dövlət müstəqilliyimizi bərpa etdik. Silahlı Qüvvələrimiz yenidən xalqa və dövlətə xidmət etməyə başladı.

Doğrudur, müstəqilliyin ilk illərində cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, Silahlı Qüvvələrdə də vəziyyət ürəkaçan deyildi. Ümummilli liderimiz



Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra isə bu sahədə də xalqın və dövlətin maraqlarına uyğun olan çoxsaylı tədbirlər reallaşdırıldı. Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələr quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

Nəticə göz qabağındadır. Azərbaycan Ordusu bir neçə beynəlxalq güc mərkəzinin 30 il himayə etdiyi işğalçı Ermənistanın ordusunu darmadağın edərək, bu terrorçu dövləti diz çökdürdü. Ali Baş Komandan İlham Əliyev 44 günlük müharibə ilə təkcə torpaqlarımızı düşmən tapdağından təmizləmədi, həm də BMT Təhlükəsizlik Şurası başda olmaqla, bir neçə qurumun qərar və qətnamələrinin icrasına nail oldu.

Sonda bir daha xatırladaq ki, tarixi varislik ənənəsinə böyük hörmət və ehtiramla yanaşan ümummilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun günü hər il Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir.

Bayramınız mübarək, qalib Azərbaycan əsgəri!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***